**AZƏRBAYCAN RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ TURİZM NAZİRLİYİ**

**F. KÖÇƏRLİ ADINA RESPUBLİKA UŞAQ KİTABXANASI**
**ELMİ-METODİKA ŞÖBƏSİ**



Yazıçı-şair Ələmdar Quluzadənin 60 illik yubileyinə həsr olunur

# Ürəyindən keçəydim

**(metodik məktub)**

**Bakı – 2012**

# Giriş

Ələmdar Quluzadə 1952-ci ildə Qarabağın Xocalı kəndində anadan olmuşdur. O, kənd orta məktəbini bitirdikdən sonra 1973-cü ildə isə N. Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universitetinin Xankəndi filialında Azərbaycan dili və ədəbiyyat fakultəsini bitirib. 1988-ci ilin sentyanbr ayına qədər Xankəndində yaşayıb və bu müddətdə keçmiş, DTMV radio verilişləri komitəsinin Azərbaycan verilişləri redaksiyasında müxbir vəzifəsində çalışmışdır. O, Azərbaycan yazıçılar birliyinin üzvüdür.

Yaradıcılığa gənc yaşlarında başlayan şairin şeirləri "Azərbaycan gəncləri", "Ədəbiyyat və incəsənət" qəzetlərində və "Ulduz" jurnallarında dərc edilmişdir. Ələmdar Quluzadənin ilk kitabı "Dağların yaddaşı" adlanır. Sonralar Ələmdar müəllimin bir-birindən maraqlı kitabları dərc edilmişdir. O, "Tumurcuqlar", "Beş qitənin uşaqları", "Şəhid şəhər", "Alay komandiri", "Ömür-gün qabaqdadır", "İsti ocaq", "Mənə söz verin", "Məhləmin uşaqları", "Məni yoldan eləmə", "Qürbətə düşən daş", "Dilotu", "Ürəyindən keçəydim", "Ətirşah ətri", "Boğça", "Qadan mənə Qarabağ" kitablarının müəllifidir. Şairin kitablarını kiçiklərlə yanaşı, böyüklər də sevərək oxuyur.

Ələmdar Quluzadənin çoxsahəli yaradıcılığında uşaq ədəbiyyatının özünəməxsus yeri var. Təbiətə, folklora, xalq yaradıcılığına, insanların psixologiyasına yaxından bələd olması şairin uşaqlar üçün qələmə aldığı şeir və nağıllarda da özünü aydın şəkildə göstərir. Ələmdar müəllimin "Qürbətə düşən daş" kitabında vətənə, xalqa, əməyə, anaya, dosta sevgi mövzularında yazılmış nağıllar ("Papaqçı", "Dəmirçi Daşdəmir", "Bar ağacı", "Bənövşə", "Yuva", "Kiçik qardaş", "Nökər alim", "Göyərçin") geniş yer almışdır. Bu kitabda müəllif özünü nəsrdə sınamış, həm də uşaqlara haqq-ədalət, vətənpərvərlik, mərdlik, qorxmazlıq, cəsurluq, barədə düşüncələrini çatdırmışdır.

Yazıçı-şair Ələmdar Quluzadənin nağılları ilə yanaşı, onun şeirləri, poemaları, pyesləri də bütün yaş oxucularda maraq doğurmaqla yanaşı, onları vətənpərvər ruhda tərbiyə edir.

Sevimli şarimizin bu il 60 yaşı tamam olur. Bu münasibətlə bir sıra kitabxanalarda və mədəniyyət müəssiələrində tədbirlərin keçirilməsi nəzərdə tutulur. Kitabxanamızın şairə həsr etdiyi metodiki vəsati sizə təqdim edirik.

## Keçiriləcək tədbirlər

Bu il şair Ələmdar Quluzadənin 60 illik yubileyi qeyd olunur. Bu münasibətlə kitabxanalarda bir sıra tədbirlər keçirmək olar.

Maraqlı tədbirlərdən biri icmallardır. Belə ki, Ələmdar Quluzadənin bir-birindən maraqlı kitablarının icmalını keçirmək olar. Onun "Ürəyindən keçəydim" adlı şeirlər toplusu 2010-cu ildə "Ozan" nəşriyyatında nəşr olunmuşdur. Kitab geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur. Kitabda Azərbaycan gözəllərinin sədaqətindən, ləyaqətindən, bəhs edən poetik nümunələr yer almışdır. Kitab İlham Rəhimlinin "Sevgisi sözündə çiçəklənən" adlanan ön sözlə başlayır. Daha sonra "Söz yiyəsi", "Gözəlliyə əsir düşdüm", "İllərin imtahanı", "Həsrət- elə sevgidir", "Yurdu gəzib dolaşdıqca" başlıqları altında şairin bir birindən maraqlı şeirləri oxuculara təqdim olunur. Kitabda yer alan şeirlərdən biri olan "Qara gözlər, ağ saçlar" adlı şeiri sizə təqdim edirik:

Sonra dada çatmır yüz haray, həşir,
Taca əl uzatma taxtından qabaq.
Qızlar gözəlləşir, dünya gəncləşir,
Mən şair olmuşam vaxtından qabaq.

Qəsdimə durubdur bu insafsızlar,
Ürək sındırırlar, çiçək dərirlər.
Mənə şair kimi gül verən qızlar
Mənə əmi kimi yer göstərirlər.

Gümüşü saçlarım şoran düzlərdi,
Məni toplayıblar dağardan vallah.
Bu qara saçlardır, qara gözlərdi
Mənim saçlarımı ağardan vallah.

Ələmdar Quluzadənin kitablarından biri də "Qadan mənə Qarabağ" adlanır. 2006-cı ildə "Ozan " nəşriyyatında işıq üzü görən bu kitabda Ələmdar Quluzadənin Qarabağ mövzusunda yazdığı şeirlərlə yanaşı, müharibədən bəhs edən beş poeması və qədim Şuşaya həsr olunan "Pənah evi" adlı məzmun pyesi daxil edilmişdir.

Şairin doğulub boya-başa çatdığı Xocalının ermənilər tərəfindən işğal edilməsi, uşaqdan böyüyə yüzlərlə dinc Xocalı sakininin vəhşicəsinə qətlə yetirilməsi onun qəlbində və qələmində ağrılı-acılı iz buraxmışdır. Müəllif bu topluda vətən oğullarını ayıq-sayıq olmağa, dostu düşməndən, əbədini ötəridən seçməyə, torpağımızın işğalı ilə barışmamağa, daim mübariz olmağa çağırır. Kitabda "Qanımla yazılan Qarabağnamə", "Eşqimsən gücüm olsa", "Dağlar, məni bağışlama", "Bilirsənmi?", "Bu baharın gəlişini görmədim", "Vətən bayrağı", "Qarabağ himni", "Dünyanın işi" və s. adlı şeirlər yer alır. Bütün şeirlər, oxucularımıza vətənpərvərlik, anaya, millətə, xalqa məhəbbət hissi aşılayır. Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Bildiyimiz kimi Ələmdar Quluzadə yalnız nəzm deyil, eyni zamanda nəsr əsərlər də yaratmışdır. Onun 2008-ci ildə "Qürbətə düşən daş" adlı nağıllar kitabı yazıçının uşaqlara ən gözəl hədiyyəsidir. Kitabda 23 adda ("Nalbənd Nağı",

“Balıqçı və söyüd”, “Duz dağı”, “Yalançı və tamahkar”, “Kömürçüoğlu”, “Kiçik qardaş”, “Bənövşə”, “Kiçik qardaş”, “Nökər alim”, “Ceyran südü”, “Papaqçı”, “Xan, vəzir və keçəl”, “Göyərçin”) bir-birindən maraqlı nağıl yer almışdır.

Ələmdar Quluzadənin yubileyi münasibətilə həmin nağıllarıdan biri olan “Papaqçı” nağılını oxucuların iştirakı ilə səhnələşdirib səhərcik hazırlamaq olar:

**Aparıcı:** Neçə qərinə bundan qabaq bir papaqçı vardı. Elin, obanın kişiləri gəlib ondan papaq alar, atasına rəhmət oxuyardılar. Günlərin bir günü düşmən hücum cəkib, məmləkətin üstünə yeridi. Dəmirçilər qılınc döydü, nalbəndlər at nalladı, əli ilmə tutanlar corab toxudular. Papaqçı da öz işində idi – gecə-gündüz papaq tikirdi. Döşü döyüş üçün atlanan kişilər də var idi, başını gizlətməyə yer gəzən başı papaqlı da. Bir gün papaqçı gördü ki, papaq alan kişilərin çoxu küncdə bucaqda baş girləyir, başını da, papağını da qoruyur. Fikirləşdi ki, papağı namus-qeyrət üçün tikirsə, onu başına qoyan yağı qabağından qaçmamalıdır. Bir gün bir kişi papaqçıya dedi ki, ona başı ölçüsündə mələməmiş quzunun dərisindən papaq versin.

**I Oxucu** (Papaqçı)**:** Papaq sənin nəyinə lazımdır?

**II Oxucu** (Müştəri)**:** Papaq kişinin nəyinə lazımdır? Xeyir işimiz var. Sağlığına toyda papağımın arxasın qaldırıb süzəcəyəm.

*(Papaqçı müştərini qovur)*

**I Oxucu** (Papaqçı)**:** Mən papağı döyüşən kişilərə, vuruşan igidlərə bəxşiş edirəm. Yurdumun başının üstünü düşmən qara bulud kimi kəsdirəndə ceyran balası kimi süzən “kişilərə” yox.

*(Müştəri çıxıb gedir)*

**Aparıcı:** Papaqçı yerini təzəcə isitmişdi ki, üç oğlan dükana girib papaq istədi. Papaqçı onlara da eyni sualı verdi.

**I Oxucu** (Papaqçı)**:** Papaq sənin nəyinə lazımdır?

**Cavanlar:** Papaq kişinin nəyinə gərəkdir? Başımıza ləçək bağlayası deyilik ki?

**I Oxucu** (Papaqçı)**:** Başına papaq qoyan yurdu qorumalıdır, qurşağına qılınc taxmalıdır, yəhəri atın belinə sıxmalıdır.

*(Cavanlar gülüşdülər)*

**Cavanlar:** Baba, sənin nəyinə gərək papaq alanlar nə etməlidirlər? Niyə müştərini qaçırdırsan?

*(Papaqçı əlini xəncərə atdı)*

**I Oxucu** (Papaqçı)**:** Baş özündən qiymətli papağı gəzdirə bilməz. Nə qədər ki, əlim namərd qanına batmayıb, rədd olun burdan!

**Aparıcı:** Cavanlar bir-birini itəliyə-itəliyə qapıdan çıxdılar. Hər yerə xəbər çatdı ki, papaqçı hər müştəriyə, hər yoldan ötənə papaq satmır. Müştərilərin çoxu papaqçıdan üz çevirdi. Bir gün qoca papaqçı dükanda oturmuşdu. İçəri bir oğlan girdi. Dərisi ütülmüş papağını başından çıxarıb təzə papaqlara baxdı.

**III Oxucu:** Döyüş papağı istəyirəm, baba!

**Aparıcı:** Qoca papaqçı oğlanı bağrına basdı. Qılınc kəsməz, ox batmaz papaqlardan birini verdi oğlana.

**I Oxucu** (Papaqçı)**:** Bəxşişdir.

**III Oxucu:** Dəmirçioğlu borclu qalmaz.

**Aparıcı:** Atının belinə sıçradı. Məmləkətdəki kişilər, ərlər qeyrətə gəlmişdilər. Ərlər, ərənlər qoca papaqçıdan papaq almaq üçün onun qapısını kəsdirirdilər. Papaqçı gecə-gündüz işləyirdi.
Bir gün məmləkətə xəbər yayıldı ki, papaqlı kişilər düşmənləri torpaqlarımızdan qovub çıxarıblar. Papaqçı ömründə ilk dəfə hönkür-hönkür ağladı.

Sevilən tədbirlərdən biri müsabiqələrdir. Əlləmdar Quluzadə ilə əlaqədar "Sevimlimiz Əlləmdar müəllim", "Əlləmdar Quluzadə-60", "Ürəyindən keçəydim" adları altında müsabiqələr təşkil etmək olar. Belə müsabiqələrdən biri şeir müsabiqəsidir. Uşaqların münsiflərə təqdim etməsi üçün sizə bir neçə şeiri misal göstərə bilərik. Əgər müsabiqə vətənpərvərlik mövzusunda keçirilirsə, yaxşı olar ki, uşaqlar şairin "Alay komandiri", "Şəhid şəhər", "Qadan mənə Qarabağ" kitablarındakı şeriləri əzbərləsinlər. "Qadan mənə Qarabağ" kitabındakı "Qadan mənə Qarabağ" şeirini nümunə kimi vəsaitimizdə qeyd edirik:

Araz üstdə bir zaman od tutub buz yanardı,
Səsini kökləyəndə tarında söz yanardı,
İçində qış donanda çölündə yaz yanardı.
Baş girlədik başına dönə-dönə, Qarabağ!
Qadan mənə, Qarabağ!
Söz əlimdə açılıb dilimi güllələyir,
Əllərim yelpənəkdir, dizimi şilləléyir,
Dərdim yetim quzudur, seygah üstdə mələyir.
Mələklər süd verməyir mələyənə Qarabağ
Qadan mənə, Qarabağ!

Azyaşlılara isə "Tumurcuqlar", "Beş qitənin uşaqları", "Dilotu", "Boğça" kitablarından şeirləri öyrətmək lazımdır. Həmin şeirlərdən biri olan "Beş qitənin uşaqları" adlı kitabda yer alan "Babam qocalıb" adlı şeiri sizə təqdim edirik:

Babam məni öyrədib,
Alışmışam zəhmətə,
Qırmızı almaları
Toplayıram səbətə
Əriyin budağına,
Bircə-bircə minmişəm,
Armudu dərməyi də
Babamdan öyrənmişəm.
Mənənciri, heyvanı
Nərdivanla yığıram,
Gilasa, gilanara
Pişik kimi çıxıram.
Babam bu ildən mənə
Daha demir balaca.

Axı özü qocalıb,
Çıxa bilmir ağaca.

Rəsm müsabiqəsi də oxucularımızın maraqla qarşıladığı tədbirlərdən biridir. Bu zaman Ələmdar müəllimin yaratdığı obrazların rəsmlərini çəkmək uşaqlara tapşırılır. Ən gözəl rəsm sahibi mükafatlandırılır.

Ələmdar Quluzadə bir sıra kitabın müəllifidir. Onun kitablarının və dövrü mətbuatda dərc olunmuş əsərlərinin sərgisini təşkil etmək olar. Sərgilənəcək kitabların üz qabıqlarını sizə təqdim edirik:



















Sərgi təşkil edərkən şairin öz fotolatından təşkil olunmuş lövhə də hazırlamaq olar:







Maraqlı tədbirlərdən biri oxucu konfransıdır. Tədbirin keçirilməsinə 1-2 ay qalmış materiallar seçilməli, elan yazılmalı, dəvətnamələr çap edilib paylanmalıdır. Ələmdar Quluzadənin 60 illik yubileyi ilə bağlı "Ələmdar Quluzadə-60" başlığı altında oxucu konfransı keçirmək olar. Konfransın keçiriləcəyi otaqda yazıçının kitablarından ibarət sərgi təşkil olunmalıdır. Konfrans üçün ayrıca proqram tərtib olunur, orada konfransın adı, giriş sözü ilə çıxış edən şəxs və digər çıxış edənlərin adı, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Tədbirdə şairin özü, qələm dostları, jurnalistlər, yazıçı və şairlərin çıxışları dinlənilir. Bütün çıxışların mətni və tədbirin proqramı konfransın keçirildiyi kitabxanada saxlanılır. Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (həyat və yaradıcılığı haqqında məruzə)
2. Ələmdar Quluzadənin yaradıcılığı haqqında oxucuların çıxışları.
3. Oxucuların ifasında şeirləri.
4. Konfransın yekunu.

Şairin yubileyi ilə əlaqədar kitab müzakirəsi keçirmək də mümkündür. Tədbirin proqramında onun keçirilmə tarixi və yeri, çıxışlar qeyd edilir. Şairin ən çox sevilən kitabı olan "Qadan mənə Qarabağ" kitabının müzakirəsini təşkil etmək olar. Şairin boya-başa çatdığı Xocalının ermənilər tərəfindən işğal edilməsi, yüzlərlə dinc sakinin qətlə yetirilməsi, onun qəlbində və qələmində ağrılı-acılı iz buraxmışdır. Kitab ön söz əvəzinə "Qanımla yazılan Qarabağnamə" adlı şeirlə başlayır. Şeirin bütün misralarında vətən həsrəti duyulmaqdadır:

Dərdimi-odumu qələmə alıb
Məktubu yollayıram gələcəyə mən.
Bir gün görəcəyəm yaram sağalıb,
Axırda sevinib güləcəyəm mən.
Döydük başımızı əhlət daşına.
Külüm gözlərimdə qarışdı nəmə.
Bu da millətimin qan yaddaşına
Qan yaddaşına yazılan Qarabağnamə.

Ümumilikdə kitabda Qarabağ, Şuşa, Xocalı və başqa işğal olunmuş bölgələrə həsr olunmuş "Şəhid şəhər", "Qarabağ oyunu", "Salam, Xocalı dərdim", "Gözlə, Xocalı, gözlə", "Dağlar məni bağışlama", "Qadan mənə, Qarabağ" və s. adlı şeirlər də yer almışdır.

Maraqlı tədbirlərdən biri ədəbi bəddi gecədir. Ələmdar Quluzadənin 60 illik yubileyinə həsr olunmuş "Ürəyindən keçəydim" adlı ədəbi bədii gecənin ssenarisini sizə təqdim edirik.

## Ssenari

*(Tədbir zamanı slaydlardan istifadə olunması tədbiri oxucularımız üçün daha da maraqlı edir. İlk öncə Ələmdar müəllimə həsr olunmuş tədbirlərdə nümayiş etdirilməsi üçün hazırladığımız slaydı təqdim edirik. Sonra tədbir kitabxana müdriyyəti tərəfindən açıq elan edilir. Daha sonra aparıcılara söz verilir. )*

I Aparıcı: Salam əziz uşaqlar, hörmətli qonaqlar. Bugünkü tədbirimiz böyükdən-kiçiyə hamımızın yaxşı tanıdığı yazıçı-şair Ələmdar Quluzadəyə həsr olunub.

II Aparıcı: Ələmdar Quluzadə xalqın sevimli sənətkarıdır. O, zamanın nəbzini tuta bilən xalqın dərdinə, sevincinə şərik olan bir insandır. Onun əsərlərini təkcə kiçiklər deyil, böyüklər də sevərək oxuyur. Ələmdar müəllim bir –birindən maraqlı şeirlərin, poemaların, nəsr əsərlərin müəllifidir. Gəlin oxucularımızın birinin ifasında onun şeirlərindən birini dinləyək:

*(Oxucu Ələmdar Quluzadənin "Çin olan yuxular" şeirini söyləyir.)*

Bir gün yuxuda görür
Şalvarımı cırmışam
Bir gün yuxuda görür
Bir şüşə sındırmışam.
Görür ocaq qalayıb
Əlimi qızdıraram.
İti o baş- bu başa

Eyvanda gəzdirərəm.
Görür ocaq qalayıb
Görür döşəyin üstdə
Beş-altı nəlbəki var.
Mənim gündəliyimdə
Iki dənə “2” var.
Görür ki, qəfəsdəki
Bülbül göyərçin olur.
Nədəndirsə anamın
Pis yuxusu çin olur.

I Aparıcı: Onun əsərləri hər bir oxucuda vətən, xalq, ana sevgisini daha da mökəmləndirir. Dostlar, siz Ələmdar müəllimin “Azərbaycan dili” şeirini oxumusunuzmu? Həmin şeirin hər bir misrasında dilimizin zənginliyi, qədim tarixi duyulmaqdadır. Gəlin şairin “Azərbaycan dili” şeirini oxucumuzun ifasında dinləyək:

Anaların laylası
Bizim ana dilimiz,
Anamız tək sevirik
Dil açanda onu biz.
Min illərdir yaranıb,
Hər kəlməsi bir çiçək.
Zəngindir yurdum kimi,
Qədimdir tarixim tək.
O şirin avazıdır
Kəpəzin də, Milin də,
Ürəyim də danışır
Azərbaycan dilində.

II Aparıcı: Uşaqlar, gəlin sizinlə birlikdə kiçik bir oyun keçirək. İndi sizə suallar təqdim edəcəyik. Sualları düzgün cavablandıran hər bir dostumuza Ələmdar Quluzadənin kitabını hədiyyə edəcəyik. Ilk sualımızı təqdim edirik: Ələmdar Quluzadə neçənci ildə anadan olmuşdur? *(Cavab: 1952ci ildə yanvarın 7-də anadan olmuşdur.)*

I Aparıcı: Afərin, dostlar! İndi də mən sizə bir sual təqdim edim. Diqqətli olun sual belədir. Ələmdar Quluzadənin 3 kitabının adını kim söyləyə bilər? *( Cavab: “Qürbətə düşən daş”, “Boğça”, “Dilotu”.)*

IIAparıcı: Şairin vətənpərvərlik mövzusunda hansı şeirlərinin adlarını deyə bilərsiniz? *(Cavab: “Şəhidlər xiyabanı”, “Şuşaya aparacaq”, “Zəfər zənguləsi”, “Ata yurdum, ana dilim” və s.)*

I Aparıcı: Bəs kim deyə bilər, Ələmdar müəllimin Qarabağa həsr olunmuş kitabı necə adlanır? *(Cavab: “Qadan mənə Qarabağ”)*

*( Suallar cavablandırılır, Düzgün cavab verənlər mükafatlandırılır)*

II Aparıcı: İndi isə gəlin birlikdə “Aysel” qrupunun ifasına qulaq asaq.

I Aparıcı: Uşaqlar, elə bir şair tanıyırsınızmı ki, vətənimizin gözəlliyini, onun meşələrini, şirin sulu çaylarını öz əsərlərində təsvir etməsin? Vətənimizin tərənnümü hər zaman sənətkarın diqqət mərkəzində

olmuşdur. Gəlin həmin şeirlərən birini oxucularımızın ifasında dinləyək.

*(Oxucular "Vətən bayrağı" şeirini söyləyir)*

I Oxucu:

Qopuzumda, kamanımda
yad sim yoxdur,
Mənim laylam Bayrağımdır,
Ondan uca, ondan əziz
səsim yoxdur.
Babam mənim çırağımdır,
Balam mənim Budağımdır.
Beşiyimin başındakı
anam olub,
Anam mənim bayrağımdır.

II Oxucu:

O səhrada dağ qarıdır,
O dərədə bulaq deyil,
Hər zirvədə əzəmət var,
Hər əzəmət Bayraq deyil.
Taleyində bayraq varsa
Tarixin də uzanacaq,
Eşqim məndən ucadırsa
Bayraq adı qazanacaq.

III Oxucu:

Bayrağımın rənginə bax-
Biri soyum,
Biri boyum,
Biri toyum.
Varlığımdır,
Varlığımdan necə doyum?
Bir gecənin zülmətinə
dözmək üçün
Mənzilində bir şam olsun,
Bayrağını öpməyənə
Ana südü
haram olsun!

IV Oxucu:

Sən zamana sinə gərib,
Sən tarixin
Cavabını verməlisən,
Başını hər qaldıranda
Günəşdən də öncə, qardaş,
Bayrağını görməlisən.
Azadlığı soraqlayan
Xalqlar cıdır atındadır.
Bayrağını tanımayan

Vətən bulud içindədir,
Millət torpaq altındadır.

I Aparıcı: Dostlar, hamımız bilirik ki, Azərbaycanımızın bu səviyyəyə gəlib çatması heç də təsadüfi deyil. Yurdumuz bu tarixi inkişaf yolunu keçənə kimi enişli-yoxuşlu yollar keçmişdir.

II Aparıcı: "İyirmi yanvar", "Xocalı" kimi tarixi həqiqətləri xalqa, gənc nəsillərə çatdırmağı özünə borc bilən Ələmdar Quluzadə "Qadan mənə Qarabağ" adlı kitabını oxucularına hədiyyə etmişdir. Həmin kitabda yer alan şeirlərdən birini gəlin birlikdə oxucularımızın ifasında dinləyək:

*(Oxucu "Qarabağ himni" şeirini söyləyir.)*

Oxucu:

Bu qürur milyon il onun bəsidi,
Dağında duman da, sis də tamaşa.
Nəsə yaradanın möcüzəsidi,
Burdan qanadlanan əs də tamaşa.
Şikəstə çağlayıb ötəndə dil-dil,
Ulu məhəbbətin, eşqin ahıdı.
Bura Azərbaycan gözəli deyil,
Bura Azərbaycan səcdəgahıdı.
Qavalı döyülüb, daşı qovrulub,
Qayası – qardaşım, qucağı – anam.
Gözümü açanda beşiyim olub,
Gözümü yumanda torpağı – anam.
Sualla bu yurdun qarşısına çıx,
Divarım danışar, qalam danışar.
Söhbətim harada qalsa yarımçıq,
Sabah davamını balam danışar.
Taleyim qovuşur müqəddəs oda,
Ocağa əl açan üstümə gələr.
Kimin Qarabağı varsa dünyada
Tarixdən ürəklə danışa bilər.

I Aparıcı: Dostlar, indi isə sizi maraqlandıran suallarınız varsa buyurun Ələmdar müəllimə ünvanlayın.

*(Uşaqlar onları maraqlandıran sualları Ələmdar Quluzadəyə təqdim edirlər)*

II Aparıcı: İndi isə oxuularımız Ələmdar müəllimin gözəl bir şeirini söyləsin, biz də dinləyək.

*(Oxucular şairin "İlmələrin dastanı" poemasından parçalar deyir.)*

I Oxucu:

İndi əlim çatmayan,
Indi ünüm yetməyən
Hansı kənddən danışım?
Mən nə qədər od tutum,
Mən nə qədər alışım?
Uşaq bağçalarında
Uşaqlardan əsər yox,

Mənim göz yaşlarımda
Qətiyyət yox, kəsər yox.
Oyuncaqlar da əsir,
Oyuncaqlar da girov,
Hardan hara qədərdi
Bu qaçhaqaç, qovhaqov?
Qaniçən cəlladları
Mənim qanım doyurmur,
Qışım qış üstə gəlir,
Daşım daş üstdə durmur.
Anaların saçına
Çən düşür, qan ələnir,
Bağçalar yetim qalır,
Məktəblər güllələnir.

II Oxucu: Güllələnir Üzeyir,
Güllələnir Natəvan,
Güllələnir Bülbülüm,
Gözümə yağır yağış,
Üzümə gülür ölüm.
Mən cəngə girməliyəm
Səsimlə, savaşımla,
Yoxsa neyləyə billəm
Döyüşməyən qolumla,
Düşünməyən başımla,
İynələrin gözündən
Gələn nur bizlik deyil,
Xanım kimi doğulan
Gözəl kənizlik deyil.
Bəsdi, mənim gül balam,
Ürəyimə qıymışam,
Yadları dinlədikcə
Ağızlardan bezmişəm,
Çənələrdən doymuşam!
Yurda qayıdacaqsan,
Zəfər günü öndədi!
Qələbənin sevinci
Sənin gözlərindədi!

I Aparıcı: İndi isə məktəblilərin ifasında gözəl rəqsə tamaşa edək.

*(Rəqsdən sonra söz yazıçı-şair Ələmdar Quluzadəyə verilir)*

II Aparıcı: Əziz uşaqlar, hörmətli qonaqlar, beləliklə sevimli şairimizə həsr olunmuş tədbirimizin sonuna gəldik.

I Aparıcı: Sonda sevimli sənətkarımıza can sağlığı, uzun ömür, yaradıcılığında yeni-yeni uğurlar arzulayırıq. Növbəti tədbirlərdə görüşənə qədər.

**S O N**

## İstifadə olunmuş ədəbiyyat

**İnternetdə:**
www.google.az

**Kitablar:**


1. Quluzadə Ələmdar. Alay komandiri.- B.: Ozan, 1999.- 80s.
2. Quluzadə Ələmdar. Beş qitənin uşaqları. B.: Gənclik, 1991. – 96 s.
3. Quluzadə Ələmdar. Dağların yaddaşı.-B.: Azərnəşr, 1976.-38 s
4. Quluzadə Ələmdar. İsti ocaq.- B.: Yazıçı, 1985.- 143 s.
5. Quluzadə Ələmdar. Qarabağ oyunu.-B.: Azərnəşr, 1993.- 48 s.
6. Quluzadə Ələmdar. Məhləmizin uşaqları.-B.: Şirvannəşr, 2004.- 80 s.
7. Quluzadə Ələmdar. Mənə söz verin.- B.: Ozan, 2001.- 248 s.
8. Quluzadə Ələmdar. Məni yoldan eləmə.-B.: Ozan, 2005.- 255 s.
9. Quluzadə Ələmdar. Ömür-gün qabaqdadır.- B.: Yazıçı, 1980.-83 s.
10. Quluzadə Ələmdar. Şəhid şəhər.- B.: Ozan, 1998.- 67 s.
11. Quluzadə Ələmdar. Tumurcuqlar.- B.:Gənclik, 1985.- 28 s.



**Tərtib edəni:** Xəlilova Xəyalə - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının baş kitabxanaçısı

**Redaktor:** Fizurə Quliyeva - F. Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru